# Azərbaycan xalqı Şuşada əbədi yaşayacaq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın martın 16-da Şuşa şəhərində olması barədə televiziya materialına baxarkən, mərhum şair, gözəl insan, dövlət radiosunda bir yerdə çalışdığımız iş yoldaşımız Qaçay Köçərlini xatırladım. Oğlu Elcan Şirinov Şuşa ətrafındakı Daşaltı əməliyyatında həlak olmuş Qaçay müəllimdən dəfələrlə eşitdiyim bu sözləri heç zaman unutmayacağam: "Mənim ürəyim daşa çevrilərək Daşaltıda, daşın-qayanın altında qalıb. O əməliyyatın qisasını alan kişini pirim, peyğəmbərim, müqəddəsim sayacağam".**

*Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Çox təəssüf ki, şəhid atası, Qarabağ fədaisi həmin ərazilərimizin düşmən tapdağından azad edildiyini görə bilmədi. Amma inanıram ki, dövlət başçımızın martın 16-da Şuşadan ayrılarkən dediyi sözlər Qaçay müəllimin ruhuna ayan oldu və onu sevindirdi: "Həm sağ tərəfdə, həm də sol tərəfdə Daşaltı kəndinin gözəl mənzərəsidir. Daşaltı kəndi də işğalçılardan azad edilib. Məhz bizim müzəffər ordumuz Daşaltıdan qalxaraq, sıldırım qayaları qət edərək Şuşaya daxil oldu. İrəlidə də Böyük Kirs dağıdır. Azərbaycanın gözəl təbiəti gözümüzün önündədir. Hansı tərəfə baxsan gözəllik, yaşıllıq. Bura Azərbaycan torpağıdır, Qarabağ torpağıdır. Bundan sonra Azərbaycan xalqı burada əbədi yaşayacaq".

Dövlət başçımızın Qarabağa son səfərləri barədə oxuyanda, düşünürəm ki, bu səfərlər Azərbaycanın daşnak Ermənistanı üzərindəki tarixi qələbəsinin əhatə dairəsini genişləndirir. Belə ki, ötən il cəmi 44 gün davam edən və noyabrın 10-da işğalçı dövlətin kapitulyasiya aktını imzalaması ilə başa çatan müharibə bizim qələbəmizin fiziki tərəflərini – yeni coğrafiyasını ortaya qoymuşdu. Həmin tarixdən sonra baş verən bir çox faktlar da oldu ki, onlar Azərbaycanın qələbəsinin mənəvi, siyasi, diplomatik əhatəsinin genişləndirilməsi baxımından qiymətlidir.

Məsələn, Bakıda keçirilən hərbi parad öz-özlüyündə bizim qələbəmizin daha böyük siyasi arenada təqdim olunmasına xidmət edirdisə, ermənilərdən qənimət kimi ələ keçirilmiş hərbi texnikanın bir hissəsinin həmin paradda nümayiş olunması da işğalçı düşmən üzərindəki mənəvi-psixoloji qələbəmizin miqyasının genişləndirilməsinə zəmin yaradırdı. Paradda iştirak edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakı tribunasından "Müharibə başa çatdı, ancaq mübarizənin yeni və daha ağır mərhələsi başlanır" – deməsi isə dünya erməniliyinə xəbərdarlıq idi: "Azərbaycan bundan sonra öz ərazilərində işğalçı hərbi qüvvələrin görünməsinə imkan verməyəcək". Dövlət başçımızın son üç ayda iki dəfə Şuşaya gedərək, orada gecələməsi isə Ermənistandakı revanşist qüvvələrin bütün ümidlərinin üstündən xətt çəkilməsi kimi qiymətləndirilir.

Fikrimcə, Prezident İlham Əliyevin son aylardakı istənilən çıxışı, nitqi, müsahibəsi və müraciəti, məhz ötən ilin noyabrında bəyan edilmiş qələbənin əhatə dairəsinin genişləndirilməsinə xidmət edir. İndi artıq region və dünya telekanalları "İlham Əliyev Hadrutda Azərbaycan bayrağını qaldırdı", "Azərbaycan Prezidenti Şuşada Molla Pənah Vaqifin ermənilər tərəfindən viran qoyulmuş abidə-məqbərəsinin bərpası ilə tanış oldu", "Prezident Əliyev bəşər tarixinin ən qədim insan məskənlərindən olan Azıx mağarasının girişində şəkil çəkdirdi" kimi cümlələrlə gücləndirilmiş xəbər yayırlar. Bu, qələbənin əhatə dairəsinin genişləndirilməsi deyilsə, bəs nədir?

Maraqlıdır ki, Prezident İlham Əliyev ən sadə söhbətlərdə belə rəmzlərdən, siyasi-diplomatik ifadələrdən elə ustalıqla istifadə edir ki, ilk baxışda oxucu burada heç bir sətiraltı məna görmür. Əslində isə dövlət başçımız cümlədəki birbaşa mənadan başqa da nə isə deyir. Məsələn, "Şuşaya zəfər yolu ilə gəlmişik" ifadəsinin sözün hər iki mənasında qəbul edilməsi tamamilə doğrudur. Çünki Prezident Şuşaya gedən yolun həm müharibədəki zəfərdən sonra açıldığını deyir, həm də işğal edilmiş digər rayonlarımızdan Şuşaya çəkilən yeni yolun adını nəzərdə tutur.

Prezidentin göstərişi ilə bərpa ediləcək ünvanlara nəzər salaq: Bulaqlar– Qarabağ dünyada dərman kimi qəbul edilən suları ilə məşhurdur. Məscidlər –işğaldan azad edilmiş ərazilərimizdə 62 məscid var. Ermənilər hansı haqla bu torpağa iddia edirlərsə, özləri də bilmirlər. Kilsələr – ermənilər bu yerlərin əzəli sahiblərindən olan Qafqaz albanlarının ibadət yerlərini də viranə qoyub və təhqir ediblər. Molla Pənah Vaqifin məqbərəsi – Qarabağ xanının vəzirinin Şuşadakı məqbərəsinin yerlə-yeksan edilməsinin əsas məqsədi buradan azərbaycanlıların izini silmək idi. Bu murdar arzularına da çata bilmədilər.

Yeri gəlmişkən, dövlət başçımız Şuşaya yanvar ayında gələndə Üzeyir Hacıbəyovun, Xan qızı Natəvanın və Bülbülün barbar qonşularımız tərəfindən güllələnmiş büstlərini də gətirmişdi. Budəfəki səfərində isə Molla Pənah Vaqifin məqbərəsinin işğaldan əvvəlki fotolarını gətirdi: "Mən bu şəkilləri arxivdən tapmışdım. Vaqif poeziya günləri keçirilir, 1982-ci ilin yay ayında. Məqbərənin önündə ulu öndər Heydər Əliyev. İnsanlar da bax, burada, bu tədbirdə iştirak edirdilər. Keçən dəfə burada olarkən bu yerə fikir verdim və dedim ki, arxivdən şəkillər tapılsın, burada nə olub və bu şəkil tapıldı. Görürsünüz, Vaqifin təsviri bax, bu divarda olmuşdur. Mənfur düşmən bunu da sökdü, bu mərməri də sökdü. Bu da qəbrin üstündə sinə daşı idi. Vandal erməni bunu da söküb. Bunu bərpa edəcəyik".

Faktlar sübut edir ki, ermənilər azərbaycanlıların təkcə özündən yox, tarixindən, abidələrindən, daş-divarından da qorxurlar. Qorxmasaydılar, Pənahəli xanın Şuşadakı sarayını nə üçün söküb dağıdırdılar. Bizə aid olan minlərlə adı dəyişdirdikləri kimi, həmin sarayın adını da dəyişdirib istifadə edə bilərdilər. Amma etməyiblər. Çünki məqsəd Qarabağdan azərbaycanlıların izini silmək olub. Pənahəli xanın sarayı Şuşa şəhərinin tarixi mərkəzində yerləşir və Qarabağ xanlığının banisi olmuş xanın iqamətgahı idi. Məhz bu fakt sarayın dağıdılmasına "səbəb" olub: "Mənfur düşmən gəlib bizim torpağımızı zəbt edib, insanları qovub, tarixi abidələrimizi dağıdıb, söküb, vandallıq edib, barbarlıq edib".

Dövlət başçımızın Şuşada səsləndirdiyi başqa bir ifadə də diqqətimi xüsusilə çəkdi. Belə ki, biz "20 Yanvar faciəsinin şəhidləri", "Xocalı soyqırımının şəhidləri" və digər faciələrimizin şəhidləri ifadələrini tez-tez yada salırıq. Ancaq Prezident Şuşada daha mötəbər şahidin adını çəkdi: "Azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir. Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır.... Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam".

Yeri gəlmişkən, işğalçılar Şuşadakı "Qarabağ" otelinə də qənim kəsilmişdilər. Prezident və ailəsi orada gedən yenidənqurma işləri ilə də tanış oldular. Qeyd edildi ki, işğal dövründə otel faktiki olaraq fəaliyyət göstərmirdi. Dövlət başçımız xatırlatdı ki, bu otel də sovet dövründə Azərbaycanın büdcəsi hesabına tikilmişdir və ona "Qarabağ" adı verilmişdir: "Sonra mənfur düşmən otelin adını dəyişdirib "Şuşi palace" qoyub. "Şuşi" adlı bir şəhər yoxdur, olmayıb və heç vaxt olmayacaq". Bəli, bundan sonra Azərbaycan ərazisində Şuşi adlı şəhər heç zaman olmayacaq.

Çünki dövlətimiz Şuşanı nəinki Azərbaycanın, hətta dünyanın ən gözəl şəhərlərindən birinə çevirəcəkdir. Bu inamımızı dövlət başçımızın Şuşadan ayrılarkən dediyi iki cümlə ilə daha da möhkəmləndiririk: "Hava yenə də bizimlə həmrəydir. Günəş yolumuzu işıqlandırır". Yolun həmişə işıqlı olsun, Azərbaycan!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***